Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 120 (1008) 30 iyun - 1 iyul 2015-ci il

# Kənd sakinləri İsmayıllının sosial-iqtisadi inkişafını dəyərləndirir

**"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası regionların simasını sözün həqiqi mənasında deyəşir. Bunu yerlərdə apardığımız müşahidələr də təsdiq edir. İsmayıllı rayonunda apardığımız araşdırmalar zamanı məlum olub ki, məhz bu proqramın icrasından sonra regionlarda olan vətəndaşların sosial-iqtisadi problemləri aşağı səviyyəyə düşüb. Rayonun Mican, Cülyan, Tircan və Topçu kəndlərində sakinlərlə bu yöndə söhbətləşdik.**

Öncə onu qeyd edim ki, İsmayıllı rayonuna səfərlərim mütəmadi olur. Demək olar ki, yay fəslində hər həftə sonu rayonda oluram. Həyata keçirilən işləri görməmək ümmkün deyil. Başlayaq rayon mərkəzinə giriş hissədən. Burada quraşdırılan işıq dirəkləri, ətrafın yaşıllığı İsmayıllı haqqında ilkin ttəssuratların yaranmasına səbəb olur. Rayon daxilində olan yolların təmir olunması, yeni asvalt üzlüklərin çəkilməsi də görülən işlər srasındadır. Bir müddətə qədər rayon mərkəzi ilə kəndləri birləşdirən yollar çox bərbad gündə idi. Hətta maşınla kəndlərə getmək texnikaya ziyan olurdu sa, eyni zamanda insanların səbirləri dolub daşırdı. İndi isə bu problem demək olar ki aradan qalxıb. Cülyan kəndinə gedən yolun yenidən təmir olunması, Mican kəndində həyata keçirilən tədbirlər kənd sakinlərinin sevincinə səbəb olub. Mican kənd sakini Məmmədalı Əliyev deyir ki, bir müddətə qədər kənd yollar çox bərbad gündə olub. Hətta digər rayonlardan gələn qonaqlar belə İsmayıllı kəndlərinin yollarında olan problemlər üzündən bir daha bu rayona gəlmək istəmirlərmiş. İndi isə yeni çəkilən asvalt örtüyü bu problemi aradan qaldırıb. Kənd sakinləri üçün yaradılan bu şərait onların normal fəaliyyəti üçün zəmin yaradıb: "Kəndimizin yolları yenicə təmir olnub. Yolun belə yüksək peşəkarlıqla təmir olunması bizi çox sevindirir. Əvvələr dost, tanış, qohumlar bizə gəlmək istəmirdilər. Bunun səbəbini soruşanda deyirdilər ki, yollarınız çox bərbaddır. İndi bu problemç aradna qaldırılıb". Məmmədalı Əliyevlə söhbət zamanı məlum oldu ki, rayon səviyyəsində görülən işlər təkcə yolların təmir olunması ilə yekunlaşmır. Onun sözlərinə görə, sadə rayon vətəndaşı kimi yaradılan şərait onun kənddən Bakıya iş dalınca getməsinin qarşısını alıb: "Mən bir müddətə qədər Bakıda bir şirkətdfə işləyirtdim. Yaxşı əmək haqqı alırdım. Anacq di gəl pul bəs eləmirdi. Çarəsiz qayıtdım rayona. Rayondan çıxdığım uzun illər əvvələ təsadüf etdiyindən fikrimdə o idi ki, iş tapmayacaq, kiməsə möhtac olacam. Ancaq gəldim rayona. İndi bankların birində işlə düzəlmişəm. Yeri gəlmişkən yeni-yeni iş yerləri var. Bu işə düzələn zaman da seçim qarşısında idim. Ancaq düzgün qərar verdim".

M.Əliyec deyir ki, indi kənddə qaz, su, işıq problemi yoxdur. Onun sözlərinə görə, bir müddətə qədər bir çox kənd sakini Rusiyaya, digər rayonlara iş dalınca gedirdi. İndi isə demək olar ki, bütün kən cammatı bir yerə yığışmağam başlayıb. Rayonda açılan yeni-yeni infrastruk sahələrində çalışanlar var.




### *Rayonda canlanma müşahidə olunmaqdadır*

Mican kəndindən sonra rayonun digər səfalı kəndi olan Cülyanda kənd sakinləri ilə söhbətləşdik. Kənd sakinləri bildirdilər ki, prezident İlham Əliyevin imzaladığı dövlət proqramının icrası Cülyan kəndindən də yan keçməyib. Belə ki, kənddə elektrik enerjisi, qaz, su kimi sosial problemlər öz həllini tapıb. Kəns sakinlərinin işsizlik problemi də həll olunur. 67 yaşlı Səlim Rüstəmovun dediyinə görə, Cülyan kəndində bir canlanma var. Kənddə maldarlıq, və digər kənd təsərrüfatı sahələrinin inkişaf üçşün geniş imkanlar var. Ancaq bir müddətə qədər bu imkanlardan yararlanmaq olmurdu. Çünki bunun üçün sosial baza yox idi. İndi isə bütün sosial problemlər öz həllini tapıb. Kənd sakinləri də bu imkanlardan istifadə edərək kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsinə maraqlıdırlar.



Topçu kənd sakinləri ilə söhbət zamanı kənd sakinlərinin həyata keçirilən işlərdən razılığının şahidi olduq. 38 yaşlı Teyyub Muradov deyir ki, Topçu turizm üçün çox əlverişli yerdə yerləşən kənddir. Yay fəslində bura turist axını olur. Bir müddətə qədər kəndin sosial iqtisadi vəziyyəti, yol infrasntruktunun bərbad olması turist axını xeyli aşağı salmışdı. İndi isə bu ypndə xeyli irəliləyiş hiss olunur. İşlə bağlı bir müddət əvvələ qədər əziyyət çəkdiyini bildirən həmsöhbətin indi bu problemin arandan qaldırıldığını bildirdi. Onun sözlərinə görə, Topçu kəndi Qələbə rayonuna yaxın olduğu üçün kənd sakinlərinin bir çoxu öz ehtiyaclarını ödəmək üçün Qəbələ rayonuna iş dalınca gedirdi. Çünki İsmayıllıda iş yerləri demək olar ki, yox səviyyəsində idi. Olan iş yerlərində də vakansiya olmadığından vətəndaşların bir çoxu çıxılmaz vəziyyətdə qalmışdı. İndi isə bu problem həll olunub. Həmsöhbətim deyir ki, rayonda fərdi sahibkar kimi fəaliyyətə başlayıb. Artıq öz dolanacağını da burdan çıxarır.

Sonda onu da qeyd edək ki, İsmayıllı rayonunda tikinti quruculuq işləri davam etdirilir. Rayonun mərkəzi küçələrində həyata keçirilən işlər rayonun ümumi ab-havasına müsbət təsir edib.

Onu da bildirək ki, rayonda olduğumuz zaman daha bir şad xəbər aldıq. İsmayıllı rayonunun Basqal qəsəbəsinə təbii qaz verildi. Bu münasibətlə Basqalda təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin başçısı Mirdamət Sadıqov, millət vəkili Novruz Aslan iştirak edib.

**Qeyd edək ki, İsmayıllı rayonunun 750 abonenti olan Basqal qəsəbəsinə təbii qazın verilməsi üçün birpilləli sistem əsasında ümumi uzunluğu 2930 metr olan polietilen və 32 286 metr metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilmiş, 750 ədəd sayğac və fərdi tənzimləyici quraşdırılıb. Tədbirlərdə çıxış edən ictimaiyyət nümayəndələri yaşayış məntəqəsinə təbii qazın verilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür ediblər.**

*Ədil Ədilzadə*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ